Azərbaycanın qısa zaman kəsiyində böyük inkişaf yolu keçməsi müstəqilliyimizin ən böyük uğurlarından biridir. Heydər Əliyevin qurduğu müasir Azərbaycan dövləti bu gün Prezident İlham Əliyevin liderliyi ilə daha da inkişaf edir və qüdrətlənir. İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən düşünülmüş, çevik, qətiyyətli, uzaqgörən siyasət nəticəsində ölkəmiz mühüm siyasi, iqtisadi-sosial uğurlara nail olub. Azərbaycan qlobal maliyyə böhranlarını qısa müddətdə inkişafla əvəzləyib. Bu gün respublikamız Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı tərəfdaş, qlobal enerji və nəqliyyat layihələrinin iştirakçısı, beynəlxalq tədbirlər məkanı kimi tanınır. Prezident İlham Əliyev çox qısa müddətdə bütün sahələrin inkişafı istiqamətində çoxşaxəli islahatlar həyata keçirməklə Azərbaycanın ən yeni tarixinə qızıl hərflərlə yazılan uğurların müəllifidir.

Prezidentin fəaliyyəti ilə bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik.

İLHAM ƏLİYEV missiyası

Mərdlik, mətanət və ləyaqət simvoluna çevrilən Prezident

Bahar MURADOVA,
Milli Məclis Sədrinin müavini,
İnsan hüquqları komitəsinin sədri,
YAP İdarə Heyətinin üzvü:

- "Xalqın gözü tərəzidir" - həyatın ağır sınaqlarından keçərək heç vaxt öz aktuallığını itirməyən bu qədim atalar sözünü müasir tarixi reallıqlar prizmasından təhlil edərkən bu fikirdə həqiqətən də böyük bir hikmətin gizləndiyini görürük. Belə ki, Azərbaycanın tarixi fərqli düşüncəyə, xarakterə və qabiliyyətə malik müxtəlif səciyyəli rəhbərlərin obrazları ilə kifayət qədər zəngindir. Lakin zaman sübut edib ki, yalnız ali və nəcib keyfiyyətlərə malik, özündə bir çox rasional lider keyfiyyətlərini birləşdirən, bütün gücünü və əzmini yalnız xalqın mənafeyi naminə sərf edən, ona göstərilən etimadı layiqincə doğrulda bilən rəhbər öz adını-sanını, mövqeyini və nüfuzunu tarixən qoruyub saxlaya bilir.

Məhz buna görədir ki, dahi Heydər Əliyevin əziz xatirəsi bu gün də qədirbilən Azərbaycan xalqının qəlbində əbədi yuva qurub, normal düşüncə sahibi olan hər kəs onu özünə mənəvi ata hesab edir. Bu gün onun gerçək siyasi varisi kimi qəbul edilən və Azərbaycanın mərdlik, mətanət və ləyaqət simvoluna çevrilmiş Prezident İlham Əliyev isə ulu öndərin yaratdığı geniş fəaliyyət perspektivlərini məharətlə doğru-düzgün dəyərləndirərək xalqı daha firavan gələcəyimizin yoluna işıq saçan yeni üfüqlərə doğru aparmaqdadır.

Müstəqil Azərbaycan dövlətinin sükanı arxasında durduğu 14 il ərzində o, cəmiyyətə özünün xarizmatik lider obrazını və rasional siyasi davranış modelini təqdim edib. İlham Əliyev ulu öndərin həyat məktəbinin ən layiqli yetirməsi kimi öz fəaliyyəti ilə milli mənəviyyatımıza uyğun siyasi əxlaq və siyasi etika nümunəsinin müəllifidir.

İlk gündən hər bir azərbaycanlının Prezidenti olacağını vəd edən və sonadək sözünü tutmağı bacaran dövlət başçısı ölkəyə rəhbərlik etdiyi bu illərdə islahatçı lider kimi tanınmış, Azərbaycanın və azərbaycanlıların yeni intibah dövrünün müəllifi kimi milli tariximizə şərəfli bir səhifə yazmışdır. Siyasi düşüncəsinin və təfəkküründə milli qaynaqlara bağlı olduğundandır ki, cənab İlham Əliyev yeni şəraitdə Azərbaycanı dünyanın inkişaf etmiş ölkələri sırasına çıxarmağı qarşısına əsas məqsəd kimi qoymuşdur. Müasir azərbaycanlı təfəkküründə vətən və xalq təəssübkeşliyi, Şərqin müsbət ənənələri, milli-mənəvi-əxlaqi dəyərlər, Qərb və Avropa modellərinə məxsus intellektual imkanlar vəhdət şəklində birləşərək cənab İlham Əliyevin unikal düşüncə tərzini səciyyələndirir. O, idarəçiliyin elə demokratik və optimal yolunu seçmişdir ki, hər bir zəka sahibi dövlətçiliyin inkişafı üçün öz potensialını xərcləyə bilsin. Bu gün dövlət quruculuğunda bu yer hər kəsin məhz vətənpərvərliyinə, biliyinə, sağlam düşüncəsinə, bacarığına görə müəyyənləşmişdir.

Prezident İlham Əliyev öz möhkəm siyasi iradəsi və prinsipiallığı sayəsində neft strategiyasının, əfsanələrin reallığa çevrilməsini hədəfləyən möhtəşəm transmilli enerji və nəqliyyat layihələrinin reallaşmasında müstəsna xidmətləri ilə Azərbaycanın çağdaş tarixinin ən şanlı səhifələrini yazıb. Bu gün onun bilavasitə rəhbərliyi ilə həyata keçirilən əsaslı və mükəmməl islahatlar dünyada baş verən qlobal böhran şəraitində ölkəmizin mümkün mənfi təsirlərdən sığortalanmasını etibarlı şəkildə təmin etməkdədir.

Milli qanunvericiliyimizin yeni çağırışlar fonunda daha mükəmməl müddəalarla zənginləşməsində və təkmilləşdirilməsində, insan hüquqlarının həyatımızın ən ali dəyərləri sırasında yer alması istiqamətində atılan addımlar ilk növbədə məhz bu məsələlərlə bağlı mütərəqqi təşəbbüslərlə çıxış edən dövlət başçısının insan amilinə verdiyi önəmdən irəli gəlir.

Bu illər ərzində ümummilli liderin yadigarı və Azərbaycanın tərəqqisini şərtləndirən fəaliyyətin ideoloji sütunu rolunu oynayan Yeni Azərbaycan Partiyasının sıralarının keyfiyyətcə yeniləşməsi və qüdrətli, əzəmətli siyasi orduya çevrilməsi prosesi də partiyamızın rəhbəri cənab İlham Əliyevin möhkəm, dönməz əqidəyə bağlı keyfiyyətlərinin təzahürüdür.

Qürurvericidir ki, yüksək intellekti, praqmatik düşüncəsi, müasir dünya siyasətinin və iqtisadiyyatının əsaslarını mükəmməl şəkildə əxz etməsi ilə mütərəqqi ideyalara bağlı müasir lider obrazını yaratmağa nail olmuş Prezident İlham Əliyev təkcə ölkə daxilində deyil, həm də beynəlxalq miqyasda sözünün çəkisinə və sanbalına diqqəti cəlb etdirməyi bacarır. Azərbaycanın regionda, ümumiyyətlə, dünyada söz sahibi olması, mövqeyinin qəbul edilməsi, zərgər dəqiqliyi ilə hesablanmış balanslı siyasi kursun və diplomatiyanın son nəticədə ölkəmizə böyük siyasi dividendlər qazandırması da məhz bu amildən qaynaqlanır.

İlham Əliyevin siyasi portreti onun fərdi obrazının özünəməxsus cizgiləri ilə daha zəngin görünür. Sadə bir insana məxsus ola biləcək bütün dəyərli keyfiyyətlər özəl günlərində xalqla bərabər olan, öz sevincini onlarla bölüşən, hər zaman özünün xalqın birinci xidmətçisi olduğunu elan edən dövlət başçısının şəxsində üzvi şəkildə birləşmişdir. Ona görə də o, bu gün böyükdən-kiçiyə mütərəqqi düşüncəli hər bir Azərbaycan vətəndaşının sevimlisinə çevrilmişdir. Bu mənada Azərbaycan xalqı özünü ən azı ona görə xoşbəxt saymalıdır ki, o, memarı olduğu müstəqil Azərbaycanın taleyini etibarlı əllərə tapşıraraq rahatlıq hissi ilə əbədiyyətə qovuşmuş müdrik Heydər Əliyevin arzularının çin olduğu zamanın gerçəkliklərindən bəhrələnə bilir.

Əmin olduğumu bildirmək istəyirəm ki, ən müxtəlif sahələrdə misli görünməmiş, Azərbaycan insanını mənəvi və ruhi baxımdan təmin edən möhtəşəm uğurlar yalnız bugünlə məhdudlaşmayıb, həm də cəmiyyətimizin gələcək taleyini müəyyən edir. Və təbiidir ki, bu taleyüklü işlər və əməllər Azərbaycan xalqının tarixində həmişəlik olaraq ümummilli liderin ən yaxın silahdaşı və ən sadiq məsləkdaşı, onun həyat və mübarizə yolunun ən istedadlı yetirməsi olan cənab İlham Əliyevin adı ilə qalacaq və onun rəhbərliyi altında müstəqil dövlətimizin üçrəngli bayrağı zəfər zirvələrində daim qürurla dalğalanacaqdır.

Böyük inkişafın reallıqları və üfüqləri

İsa HƏBİBBƏYLİ,
AMEA-nın vitse-prezidenti,
Milli Məclisin Elm və
təhsil komitəsinin sədri, akademik:

- Azərbaycan Respublikasının müstəqillik epoxası əsasən iki mərhələdən ibarətdir. Dövlət müstəqilliyinin Heydər Əliyev mərhələsi və müstəqilliyin yeni erasının lideri İlham Əliyev dövrü. Müstəqil Azərbaycan dövləti üçün zəruri və əhəmiyyətli olan bu mərhələlər bir-birini tamamlayıb möhkəmləndirir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ölkəmizdə dövlət müstəqilliyinin möhkəm təməllərini yaratmışdır. Prezident İlham Əliyev isə bütün istiqamətlər üzrə müstəqil dövlətçiliyi daha da inkişaf etdirərək yeni mərhələyə çıxarmışdır. Bu mənada Heydər Əliyev mərhələsi müstəqil Azərbaycan dövlətinin etibarlı və möhkəm pyedestalı, Prezident İlham Əliyev dövrü isə daim inkişafda olan möhtəşəm heykəlidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev XXI əsrin meydana çıxardığı, böyük siyasi-ideoloji məktəb keçmiş, Azərbaycan dövlətinin dayaqlarını əsaslı şəkildə inkişaf etdirərək möhkəmləndirən və yeni üfüqlər açan qüvvətli liderdir. Ölkə quruculuğu baxımından İlham Əliyev müstəqil dövlətimizin müasir inkişafının böyük memarıdır. Siyasi baxışları etibarilə azərbaycançı olan Prezident İlham Əliyev bu dövlətçilik prinsipini daim uca tutan, yeni tarixi epoxanın reallıqları ilə əlaqəli şəkildə inkişaf etdirib daha da zənginləşdirən görkəmli dövlət xadimidir.

XXI əsrin beynəlxalq neft kontraktının müəllifi Prezident İlham Əliyevdir. Bu,

XX yüzillikdə ulu öndər Heydər Əliyev tərəfindən imzalanmış "Əsrin kontraktı"nın davamı olub, Azərbaycanda neft siyasətinin ardıcıllıqla və daha yüksək şəkildə inkişaf etdiriləcəyinə təminat verən beynəlxalq səviyyəli dövlət proqramıdır. Neft hasilatının artırılması və pay bölgüsündə Azərbaycanın imkanlarının üstünlüyünü təmin etmək baxımından yeni kontrakt dövlət başçısının ölkə maraqlarına ciddi surətdə diqqət yetirməsini nümayiş etdirir. Bu həm də Azərbaycan zəngin təbii ehtiyatlara malik olduğunu da diqqət mərkəzinə çəkir.

Ümumiyyətlə, milli mənafeyi və dövlətçilik maraqlarını bütün məqamlarda hər şeydən üstün tutmaq İlham Əliyev siyasətinin əsas mahiyyətini təşkil edir. Bu məqamda möhtərəm Prezident ölkəmizlə və xalqımızla bağlı istənilən problemi beynəlxalq qaydalarla, ümumi prinsiplərlə üzvi surətdə əlaqəli şəkildə həll etmək vəzifəsini məharətlə həyata keçirir. Nəticədə müstəqil Azərbaycan dövlətinin və xalqımızın xeyrinə həll edilən hər hansı məsələ həm də dünya ölkələri ilə inteqrasiya proseslərinin daha da genişləndirilməsinə, bir çox hallarda isə yeni əlaqələrin yaranmasına yol açır. Bu zəncirvari prosesdə digər ölkələr üçün də maraqlı və faydalı əməkdaşlıq olmasına yer qoyulduğuna görə nəzərdə tutulan proqram daha əlverişli şəkildə həll olunur və əlavə olaraq yeni inkişaf mənbələrinin yaranmasına meydan açır. Bu, Prezident İlham Əliyevin dünyada gedən proseslərin mahiyyətinə dərindən bələd olduğunu və möhkəm, etibarlı, əsaslı proqramlar həyata keçirmək istiqamətində zəngin təcrübə qazandığını əyani şəkildə göstərməklə bərabər, həm də böyük novator, əsl yenilikçi rəhbər missiyasını uğurla həyata keçirdiyini də qabarıq şəkildə nümayiş etdirir.

Fikrimizcə, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizə qazandırdığı əsas uğurlardandır. Bu, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş beynəlxalq neft-qaz layihələrinin inkişaf etdirilməsi baxımından yeni mərhələ hesab oluna bilər. Bakı-Tbilisi-Qars magistralının "Dəmir İpək yolu" adlandırılması da ölkəmizdə beynəlxalq layihələrə yeni münasibəti ifadə edir. Prezident İlham Əliyevin həyata keçirdiyi bu layihə Azərbaycanın Avropa ilə Asiyanı əlaqələndirən əhəmiyyətli ölkəyə çevrilməsini şərtləndirir. Azərbaycan Respublikasının reallaşdırdığı Dəmir İpək yolu Çin Xalq Respublikasının dövlət proqramı səviyyəsində həyata keçirdiyi "Bir kəmər, bir yol" layihəsinə bərabər layihədir. Dövlət başçımızın intibah prosesləri üçün zəruri olan tranzit inkişaf istiqamətinə dövlət əhəmiyyətli proqram kimi baxması ölkəmizi daha böyük yüksəliş mərhələsinə çıxarmağa uğurla xidmət edir. Bu cəhətdən tranzit inkişaf proqramının üzvi tərkib hissəsi kimi meydana çıxmış Şimal-Cənub Nəqliyyat Dəhlizi, Astaradan keçməklə Bakı-Naxçıvan dəmir yolu layihələrinin başa çatdırılması sahəsində atılan mühüm addımlar tam mənası ilə Azərbaycan Respublikasının daha böyük inkişafına hesablanmışdır. Mühüm iqtisadi əhəmiyyətə malik olan beynəlxalq nəqliyyat əlaqələrinin öz arxasınca ölkəmizə gətirəcəyi elm və mədəniyyət, sözün əsl mənasında, intibaha təminat verən zəruri amillərdir.

Prezident İlham Əliyev tərəfindən ölkəmizdə böyük uğurla həyata keçirilən elm siyasəti də müasir cəmiyyət quruculuğunun yeni mərhələsinin əlamətdar hadisəsidir. Aparılan məqsədyönlü dövlət siyasəti nəticəsində artıq elmin inkişaf etdirilməsi ilə birlikdə, həm də müasir inkişaf proseslərində elm faktorunun rolunun artırılmasına ciddi fikir verilməsi yeni dövrün reallığıdır. Dövlət rəhbərinin təsdiq etdiyi "Elm haqqında" Azərbaycan Respublikasının Qanununda ayrıca maddədə öz əksini tapmış "Elmdə innovasiya və sahibkarlıq fəaliyyəti"nə dair müddəalar hər iki istiqamətdə elmin inkişafına təminat verir. İlk dəfə olaraq 2018-ci ilin dövlət büdcəsində elmyönlü innovasiya və sahibkarlıq fəaliyyətindən əldə olunan gəlirlərin tənzimlənməsinə dair müddəaların yer alması artıq bu sektorun real amilə çevrilməkdə olduğunu nəzərə çarpdırır. Möhtərəm Prezidentin xüsusi sərəncamı ilə Azərbaycan Milli Elmlər Akademiyasında yaradılmış Yüksək Texnologiyalar Parkının fəaliyyətinin qısa müddətdə ölkə və dünya rezidentlərinin marağına səbəb olması, təcrübə-sənaye zavodunda müasir bazarın marağına səbəb olan məhsullar istehsal etməsi ölkə elmi mühitinin yeni hadisələridir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Milli Elmlər Akademiyasının 70 illik yubileyindəki nitqində ana dilinin saflığının qorunub saxlanılması haqqında qarşıya qoyduğu tələblər nəticə etibarilə dövlət dilinin daha da inkişaf etdirilməsinə kömək edir. Dövlət başçısının "Dövlət Dil Komissiyasının yeni tərkibi haqqında"kı sərəncamı Azərbaycan dilinin inkişafı ilə əlaqədar problemlərin həlli üçün məsuliyyət daşıyan qurumların və elm adamlarının qarşısında mühüm vəzifələr qoyur. Azərbaycan Milli Elmlər Akademiyasında orfoqrafiya və orfoepiya lüğətlərinin, dialektoloji atlasın hazırlanıb nəşr edilməsi istiqamətində atılan addımlar dilçi alimlərin dövlət rəhbərimizin çağırışına cavabın ifadəsidir. Bütün bunlar isə Prezident İlham Əliyevin dövlət dilinin inkişaf etdirilməsi vasitəsilə geniş mənada müstəqil ölkəmizdə milli-mənəvi dəyərlərin dərinləşdirilməsini təmin etməyə yönəldilmiş strateji addımlar kimi mühüm əhəmiyyətə malikdir.

Milli təhsilin inkişafında yeni dövlət siyasəti həyata keçirilməkdədir. Prezident İlham Əliyev tərəfindən təsdiq olunmuş Milli Strategiya yeni tarixi mərhələdə təhsilin müasir standartlarını müəyyən etməyə və tətbiq edilməsinə nail olmağa zəmanət verir. Müəllim əməyinin diaqnostik qiymətləndirilməsi, "Sabah" qruplarının formalaşdırılması, məktəbə hazırlıq təhsilinin həyata keçirilməsi, peşə təhsilində dönüşün yaradılması, "Maarifçi" Tələbə Kredit Mərkəzinin təşkili və s. təhsil mühitinin əldə etdiyi mühüm irəliləyişlərdir. "Məktəbəqədər təhsil haqqında" qanunun qəbul olunması, "Peşə təhsili haqqında" qanun layihəsi üzərində işlərin başa çatdırılması ölkəmizdə təhsilin ayrı-ayrı pillələrinin inkişafına təkan verməyə imkan yaradır.

Ümumiyyətlə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yorulmaz və çoxcəhətli fəaliyyəti müstəqil dövlətimizin inkişafının yeni epoxasını formalaşdırmışdır. Ölkəmizin keçdiyi çətin və şərəfli inkişaf yolunun xüsusi tarixi mərhələsi olan İlham Əliyev dövrü əsl intibah pilləsi kimi dünyanın diqqətini cəlb edir və yüksək qiymətləndirilir. Müstəqil Azərbaycanın İlham Əliyev mərhələsi ölkəmizin müasir inkişaf tarixinin parlaq səhifələri olmaqla bərabər, həm də daha böyük gələcəyinin, geniş üfüqlərinin real təminatı və hərəkətverici qüvvəsidir.

Azərbaycanı sürətli inkişaf yoluna çıxaran siyasət

Tahir SÜLEYMANOV,
Milli Məclisin deputatı:

- Müstəqil Azərbaycan xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyən etdiyi yolla inkişaf edir, inamla gələcəyə doğru addımlayır. Ölkəmizin müstəqillik tarixində baş verən proseslərə nəzər saldıqda bir daha aydın olur ki, Azərbaycanın tərəqqisinin, qüdrətlənməsinin və dövlətçiliyimizin əbədiliyinin yolu məhz Heydər Əliyev siyasi kursunun davam etdirilməsindən, ulu öndərin ideyalarının gerçəkləşdirilməsindən keçir.

Heydər Əliyev şəxsiyyətinin böyüklüyü həm də onda idi ki, o, dövlət quruculuğu prosesinin ardıcıllığını təmin edəcək əsasları formalaşdırdı. Ulu öndər cənab İlham Əliyevin şəxsində Azərbaycanın müstəqilliyinin, ölkəmizin sosial-iqtisadi, mədəni yüksəlişinin daimiliyini, dönməzliyini təmin edəcək layiqli davamçısını müəyyənləşdirdi. Azərbaycan bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında yüksəliş dövrünü yaşayır, daha da güclənir, qüdrətlənir, nüfuzunu artırır. Heydər Əliyev siyasətini uğurla, yaradıcılıqla davam etdirən Prezident İlham Əliyev Azərbaycanın müstəqilliyini gündən-günə möhkəmləndirir, milli mənafelərimizi cəsarətlə və uğurla müdafiə edir, qloballaşmanın doğurduğu əngəlləri və maneələri qətiyyətlə dəf edir. Beləliklə, Azərbaycan xalqı Heydər Əliyev yolu ilə öz parlaq gələcəyinə doğru inamla, sürətlə irəliləyir.

Azərbaycan cəmiyyəti Heydər Əliyevin zəngin dövlətçilik irsini ölkənin milli təhlükəsizliyinin, iqtisadi maraqlarının və siyasi sistemin sabitliyinin təmin edilməsinə yönələn təkmil siyasi konsepsiya kimi qəbul edir. Bu siyasəti yeni dövrün tələblərinə uyğun təkmilləşdirən dövlət başçısı İlham Əliyev əsl vətənpərvər və qurucu lider əzmi ilə xalq qarşısında verdiyi vədlərin əksəriyyətini əməli işi ilə doğruldaraq hər bir vətəndaşın layiqli Prezidenti olduğunu sübuta yetirmişdir. Cənab İlham Əliyev bu dövr ərzindəki fəaliyyəti ilə xalqın seçimini doğrultmağa qadir qətiyyətli, peşəkar və milli maraqlara bağlı rəhbər olduğunu nümayiş etdirmişdir.

Reallıq da ondan ibarətdir ki, son 14 ildə Azərbaycanın bütün bölgələri tarazlı şəkildə inkişaf etmiş, bütün şəhər və kəndlər, qəsəbələr intibah dövrünə qədəm qoymuşdur. Respublikamızın ərazisi başdan-başa tikinti-quruculuq meydanına çevrilmişdir. Ölkədə həyata keçirilən sosial infrastruktur layihələri də Azərbaycan vətəndaşının firavan həyat tərzinin təmini məqsədinə xidmət edir. Ölkənin iqtisadi uğurlarını hər bir vətəndaş öz gündəlik həyatında, məişətində hiss edir. Yaşayış binaları, evlər, məktəb və xəstəxanalar, sosial obyektlər tikilir, yollar çəkilir, körpülər salınır, park və xiyabanlarda, memarlıq binalarında yenidənqurma işləri aparılır. Son illər Azərbaycanın siması büsbütün, tanınmaz dərəcədə dəyişib. Bunu ölkəmizə gələn qonaqlar da səmimiyyətlə etiraf edirlər.

Prezident İlham Əliyevin rəhbərliyi ilə qazandığımız bütün bu uğurlar Heydər Əliyevin siyasətinin və ideyalarının davam etdirilməsinin və yeni dövrün tələblərinə uyğun daha da zənginləşdirilməsinin nəticəsidir. Bu mənada Azərbaycanın son 14 ildə keçdiyi böyük inkişaf yolu göstərir ki, Heydər Əliyev siyasəti, ideyaları yaşayır, müstəqil dövlətimizin yüksəlişinə xidmət edir. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət Azərbaycanı sürətli inkişaf yoluna çıxarıb, beynəlxalq mövqelərini əhəmiyyətli dərəcədə gücləndirib. Bu gün regionun lideri və kosmos dövləti olan Azərbaycan beynəlxalq əhəmiyyətli məsələlərdə də söz sahibidir. Odur ki, Azərbaycan ictimaiyyəti Prezident İlham Əliyevi ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi prioritetlərin varisliyini uğurla təmin etmiş alternativsiz lider kimi qəbul edir. Cənab İlham Əliyevin dövlətə rəhbərlik fəaliyyəti yalnız və yalnız xalqımıza qazandırdığı böyük uğurlarla əlamətdardır. Öz növbəsində, bütün bunlar xalqımızı İlham Əliyevin ətrafında sıx səfərbər edən əsas amillərdir.

İlham Əliyevin ən ali gücü xalqın inamıdır

Tahir MİRKİŞİLİ,
Milli Məclisin deputatı:

- Cəmiyyətin inkişafında liderlərin rolu hər zaman həyati əhəmiyyət kəsb edib. Əsl liderlər bütün məsuliyyəti öz üzərinə götürmək, başqa insanların davranışlarına təsir etmək, konkret hədəflərə doğru irəliləmək və öz arxasında komandanı aparmaq qabiliyyətinə malik şəxslərdir. Tarixin bütün dövrlərində bütöv xalqların, dövlətlərin taleyi məhz liderlərin və onların liderlik keyfiyyətindən asılı olmuşdur.

Müstəqilliyinin 26-cı ilini yaşayan Azərbaycan xalqının, dövlətinin də taleyi və gələcəyi məhs hälledici anda xalqa liderlik etmiş ulu öndər Heydər Əliyevin dahiliyi və uzaqgörənliyi sayəsində müəyyən edilmişdir. Azərbaycan bu yolla ali hədəflərə doğru inamla irəliləyir.

Dirçəlmiş, müstəqil olmuş, möhkəmlənmiş Azərbaycanı dinamik inkişaf etdirmək başqa bir liderlik keyfiyyətidir, bu liderliyi isə Prezident İlham Əliyev bütün dünyaya nümayiş etdirdi. Onun "Müstəqil Azərbaycan, varlı Azərbaycan, dinc Azərbaycan və məğrur Azərbaycan" devizi var gücü və imkanları ilə həyata keçdi.

"Zamanı qabaqlayan, ağır təbiətli, sadə və mükəmməl şəxsiyyət və siyasətçi" - bu sözlər İlham Əliyevi müasir zamanda xarakterizə edən sözlərdir. Onun üçün ən qiymətli və ən əziz meyar Azərbaycan üçün qarşıya qoyduğu məqsədlərə çatmaqdır. Və o, ardıcıl olaraq bu məqsədlərə çatır: ölkə iqtisadiyyatını üç dəfə böyüdür, dərin islahatlar aparır, regional və dünyamiqyaslı layihələr icra edir, BMT Təhlükəsizlik Şurasına rəhbərlik edir, dünya olimpiadalarının qızıl medallarını alır, Avropa çempionu olur, düşmənə döyüşdə qalib gəlir, xalqın güzəranını durmadan yaxşılaşdırır... və xalqın ən sevimli lideridir.

Bu nəticələr bir milli liderin nail ola biləcəyi ən ümdə nəticələr, bir xalqın isə müasir və gələcək taleyidir.

Qarşıya qoyduğu məqsədlər isə daha çoxdur: işğalçıları ərazilərimizdən qovmaq, sağlam, təhsilli bir nəsil yetişdirmək, müstəqilliyi möhkəmlətmək, yeni, müasir texnologiyalara əsaslanan iqtisadiyyat qurmaq, dünyanın ən böyük layihələrini icra etmək, milli ənənələrlə dünyaya nümunə olmaq!..

Bu məqsədlərə çatmaq üçün Prezident İlham Əliyevin xalqın sevgisi və inamı kimi ən ali gücü vardır.

Prezident İlham Əliyevin yolu hər birimizin yoludur və bu vətənə xidmət yoludur. Bu yolda Prezidentə daim uğurlar arzu edirik!

Rəşad BAXŞƏLİYEV,
Rəşad CƏFƏRLİ,
Elçin CƏFƏROV,
"Azərbaycan"